**“Xalqkart Petrol” Bank kartı məhsulu çərçivəsində xüsusi kart hesabının açılması, bank kartının istifadəyə verilməsi və digər xidmətlərin təqdim edilməsi haqqında**
**Müqavilənin 5 №-li Əlavəsinə dəyişikliklər**

Bankın partnyor olmayan Ticarət-xidmət müəssisələrində eyni növ MCC kod altında aparılmış Nağdsız əməliyyatlar üzrə Bonus məbləğinin aylıq limitinin müəyyən olunması ilə əlaqədar olaraq:

1. “Xalqkart Petrol” Bank kartı məhsulu çərçivəsində xüsusi kart hesabının açılması, bank kartının istifadəyə verilməsi və digər xidmətlərin təqdim edilməsi haqqında Müqavilənin 5 №-li Əlavəsinin 1.4-cü bəndinin birinci cümləsi, 1.5.2-ci yarımbəndi və 1.6-cı bəndin birinci və ikinci abzasları müvafiq olaraq aşağıdakı redaksiyalarda verilsin:

- **«1.4.** Bonusların hesablanması zamanı Bankın partnyor olmayan Ticarət-xidmət müəssisələrində bu Əlavənin 1.5.2-ci yarımbəndi ilə eyni növ MCC kod altında aparılmış Nağdsız əməliyyatlar üzrə müəyyən olunmuş Bonus məbləğinin aylıq limitinə riayət olunmaqla, cari Hesabat dövründə XKH-da əks olunmuş Nağdsız əməliyyatlar, yəni XKH-dan faktiki silinmiş pul vəsaitlərinin məbləği nəzərə alınır.**»;**
- **«1.5.2.** Bankın partnyor olmayan Ticarət-xidmət müəssisələrində **-** Kartdan istifadə etməklə aparılan hər Nağdsız əməliyyat məbləğinin 3 (üç) faizi miqdarında, lakin hər bir halda eyni növ MCC kod altında aparılmış Nağdsız əməliyyatlar üzrə aylıq 30 (otuz) Bonusdan (bundan sonra – aylıq limit) çox olmamaq şərtilə.**»;**
- **«1.6.** Bank tərəfindən Kart saxlayıcısının Bonus hesabına hesablanan Bonusların məbləği Bankın partnyor olmayan Ticarət-xidmət müəssisələrində bu Əlavənin 1.5.2-ci yarımbəndi ilə eyni növ MCC kod altında aparılmış Nağdsız əməliyyatlar üzrə müəyyən edilmiş aylıq limit nəzərə alınmaqla, bu Əlavənin 1.5-ci bəndində nəzərdə tutulmuş müvafiq Mükafatlandırma dərəcəsinin Hesabat dövrü ərzində aparılmış və Bank tərəfindən bu Əlavənin 1.4-cü bəndinə müvafiq olaraq müəyyən edilmiş Nağdsız əməliyyatların ümumi məbləğinə vurulması nəticəsində hesablanır. Hesablamanın nəticəsi vergüldən sonra ikinci rəqəmə qədər yuvarlaqlaşdırılır.

Bu zaman bir Hesabat dövrü üçün Bonus hesabına mədaxil ediləcək Qazanılmış Bonusların minimal məbləği 5 (beş) Bonus, maksimal məbləği isə Bankın partnyor olmayan Ticarət-xidmət müəssisələrində bu Əlavənin 1.5.2-ci yarımbəndi ilə eyni növ MCC kod altında aparılmış Nağdsız əməliyyatlara münasibətdə müəyyən edilmiş aylıq limitdən çox olmamaq şərtilə, 300 (üç yüz) Bonus təşkil edir. Bonuslar aşağıdakı düstur əsasında hesablanır: 1 (bir) bonus 1 bir) manata bərabərdir.**».**

2. Bu dəyişikliklər 05.12.2023-cü il tarixindən etibarən qüvvəyə minir.